# Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2023-2024-cü tədris ili üçün tədris (məşğələ) planının təsdiqi barədə

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin əmri

Azərbaycan Respublikasının dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarında tədris prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 3.1.8-ci və 5.5.10-cu yarımbəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2023-2024-cü tədris ili üçün tədris (məşğələ) planı və "Tədris (məşğələ) planına dair qeydlər" təsdiq edilsin (1 və 2 nömrəli əlavələr).
**2.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bu əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına çatdırılmasını təmin etsin.
**3.** İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
**4.** Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Firudin QURBANOV,**
**Nazir səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini**

*1 avqust 2023-cü il*

---

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 01.08.2023-cü il tarixli 3-29/3-2-483F/2023 nömrəli əmri ilə təsdiq edilib*

**Əlavə 1**

### Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2023-2024-cü tədris ili üçün tədris (məşğələ) planı

| № | Məşğələlər | Həftəlik məşğələ saatlarının miqdarı | |
|---|---|---|---|
| | | Kütləvi qruplarda | Azsaylı xalqların uşaqlarından ibarət qruplarda |
| 1 | Ətraf aləmlə tanışlıq | 1 | 1 |
| 2 | Savad təliminə hazırlıq və nitq inkişafı | 2 | 4 |
| 3 | Bədii təfəkkürün inkişafı | 1 | 1 |
| 4 | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 | 2 |
| 5 | Təsviri fəaliyyət | 2 | 1 |
| 6 | Musiqi | 2 | 1 |
| 7 | Fiziki mədəniyyət | 2 | 2 |
| | **Cəmi:** | **12** | **12** |

**Əlavə 2**

## Tədris (məşğələ) planına dair qeydlər

**1.** 2023-2024-cü tədris ilində dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarına 5 yaşı 2023-cü ildə tamam olan uşaqlar qəbul edilirlər.
**2.** Azsaylı xalqların uşaqlarından ibarət qruplarda məktəbəhazırlıq təhsili, əsasən, həmin uşaqların seçilən tədris dili üzrə nitq bacarıqlarının formalaşdırılmasını, eləcə də məktəbəhazırlıqla bağlı digər zəruri məsələlərin təmin olunmasını nəzərdə tutur.
3. Məktəbəhazırlıq qruplarında uşaqların sıxlığı aşağıdakı kimi müəyyənləşdirilir:
- qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 10 uşaq;
- şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 15 uşaq.

**4.** Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.
**5.** Məktəbəhazırlıq qruplarında məşğələlər həftədə 4 (dörd) gün keçilir. Bir gün ərzində 3 (üç) məşğələ tədris olunur.
**6.** Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.
**7.** Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlara ev tapşırıqları verilmir.
**8.** Məktəbəhazırlıq qruplarında məşğələlərə davamiyyət və tədris olunan mövzular müvafiq qrup jurnalında qeyd edilir, uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir.
**9.** Məktəbəhazırlıq qruplarında məşğələlər yalnız ibtidai sinif müəllimi ixtisaslı müəllimlər tərəfindən aparılır.
**10.** Məktəbəhazırlıq qruplarında məşğələlər hər il oktyabrın 1-də başlayır və növbəti il mayın 31-də başa çatır. Dərs ili iki yarımilə bölünür:
10.1. I yarımil: 1 oktyabr - 26 yanvar;
10.2. II yarımil: 1 fevral - 31 may.
**11.** Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:
11.1. payız tətili: 16-20 noyabr (5 gün);
11.2. qış tətili: 27-31 yanvar (5 gün);
11.3. əlavə tətil: 1-5 may (5 gün).